*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.391-398*

https://doi.org/10.62837/2025.4.391

**ŞƏFA CEYHUN QIZI FƏRƏCOVA**
*Bakı Azərbaycan Avrasiya Universitetinin magistrantı*
*Shafafaracli@gmail.com*

# ROMANTİZM: TARİXİ ZƏMİN, ESTETİK PRİNSİPLƏR VƏ ƏDƏBİ TƏSİRLƏR

## XÜLASƏ

Bu məqalədə ədəbiyyat tarixində mühüm estetik-fəlsəfi cərəyan olan romantizmin yaranma səbəbləri, ideya-estetik prinsipləri və inkişaf mərhələləri araşdırılır. Romantizm XVIII əsrin sonu və XIX əsrin əvvəllərində klassisizmə və maarifçilik rasionalizminə qarşı meydana çıxmışdır. Bu cərəyan fərdin daxili dünyasını, duyğularını, azadlıq istəyini və təbiətə bağlılığını əsas estetik dəyər kimi ön plana çəkmişdir. Məqalədə romantizmin Avropa ədəbiyyatındakı təzahürləri ilə yanaşı, onun Azərbaycan ədəbiyyatına təsiri də təhlil olunur. Müəllif romantizmin təkcə ədəbi üslub deyil, həm də dövrün ictimai-fəlsəfi düşüncəsini ifadə edən dünya görüşü olduğunu göstərir. Məqalədə romantik qəhrəmanın xarakterik xüsusiyyətləri – ictimai narazılıq, ideal axtarışı, tənhalıq və təbiətlə vəhdət duyğusu üzərində dayanılır. Eyni zamanda, romantizmin digər ədəbi cərəyanlara – realizm və simvolizmə keçid baxımından rolu da qiymətləndirilir. Araşdırma nəticəsində məlum olur ki, romantizm ədəbiyyatda azad fikir, orijinallıq və fərdi ifadə imkanlarının genişlənməsinə təkan verən mühüm mərhələ olmuşdur. Bu məqalə romantizmin əhatə dairəsini, onun ədəbi inkişafdakı əhəmiyyətini elmi əsaslarla aydınlaşdırmağa yönəlmişdir.

**Açar sözlər : Romantizm, ədəbi cərəyanlar, estetik prinsiplər, fransız ədəbiyyatı, fəlsəfi düşüncə**

**SHAFA FARAJOVA JEYHUN**

# ROMANTİCİSM: HİSTORİCAL BACKGROUND, AESTHETİC PRİNCİPLES, AND LİTERARY INFLUENCES

## SUMMARY

This article examines the reasons for the emergence, ideological and aesthetic principles and stages of development of romanticism, an important aesthetic and philosophical movement in the history of literature. Romanticism emerged in the late 18th and early 19th centuries against classicism and the rationalism of the Enlightenment. This movement brought to the fore the inner world of the individual, his feelings, the desire for freedom and his attachment to nature as the main aesthetic value. The article analyzes the manifestations of romanticism in European literature,

as well as its influence on Azerbaijani literature. The author shows that romanticism is not only a literary style, but also a worldview that expresses the socio-philosophical thought of the era. The article focuses on the characteristic features of the romantic hero - social dissatisfaction, the search for an ideal, loneliness and a sense of unity with nature. At the same time, the role of romanticism in terms of the transition to other literary trends - realism and symbolism is also assessed. As a result of the research, it becomes clear that romanticism was an important stage that gave impetus to the expansion of opportunities for free thought, originality and individual expression in literature. This article is aimed at clarifying the scope of romanticism and its importance in literary development on scientific grounds.

Key words: Romanticism, literary movements, aesthetic principles, French literature, philosophical thought

**ШАФА ФАРАДЖОВА ДЖЕЙХУН**

## РОМАНТИЗМ: ИСТОРИЧЕСКИЙ ФОН, ЭСТЕТИЧЕСКИЕ ПРИНЦИПЫ И ЛИТЕРАТУРНЫЕ ВЛИЯНИЯ

### РЕЗЮМЕ

В статье рассматриваются причины возникновения, идейно-эстетические принципы и этапы развития романтизма — важного эстетического и философского течения в истории литературы. Романтизм возник в конце XVIII — начале XIX века в противовес классицизму и рационализму эпохи Просвещения. Это движение выдвинуло на первый план внутренний мир человека, его эмоции, стремление к свободе и связь с природой как главную эстетическую ценность. В статье анализируются проявления романтизма в европейской литературе, а также его влияние на азербайджанскую литературу.Автор показывает, что романтизм — это не только литературный стиль, но и мировоззрение, выражающее социально-философскую мысль эпохи. В статье рассматриваются характерные черты романтического героя — социальное недовольство, поиск идеала, одиночество, чувство единения с природой. При этом оценивается и роль романтизма в плане перехода к другим литературным течениям — реализму и символизму. Исследование показывает, что романтизм был важным этапом в литературе, который способствовал расширению возможностей для свободной мысли, оригинальности и индивидуального самовыражения. Целью данной статьи является прояснение сферы романтизма и его значения в развитии литературы на научной основе.

**Ключевые слова: Романтизм, литературные течения, эстетические принципы, французская литература, философская мысль.**

Romantizm on səkkizinci əsrin sonu on doqquzuncu yüzilliyin əvvəllərində ədəbi-nəzəri fikrin ümumi axarına əsaslı istiqamət verə bilmək imkanları ilə özünü daha geniş şəkildə təzahür etdirir. C.Bayron, V.Hüqo, J.Sand, A.Monteskye, A.S.Puşkin, M.Lermontov və onlarla, yüzlərlə sənətkarın yaradıcılığında bir düşüncə sistemi olaraq olaraq mahiyyətini ortaya qoyur. Klassizm ədəbi meylindən fərqli olaraq əsaslı bir düşüncə modeli olaraq geniş yayılma coğrafiyası ilə spesifikləşir. Klassisizm nümayəndələri əsərlərində ağıl, məntiq, harmoniya və nizam anlayışlarını əsas götürdüyü halda, romantizm cərəyanının təmsilçiləri fərdiyyətçilik, emosional zənginlik və xəyal gücünü ön plana çəkmişlər. Romantizm bir dövrün sonunu ifadə etməklə yanaşı, yeni bir dövrün başlanğıcını da xəbər verirdi. Bu cərəyanın nümayəndələri keçmişin idealist və realist baxışlarından uzaq durmuş, sənət əsərlərində fərdi duyğuların ifadəsinə üstünlük vermişlər. Beləliklə, romantizm həm emosional, həm də intellektual yönü olan bir sənət anlayışı kimi formalaşmışdır.

Besim Dellaloğlunun fikrincə, XVIII əsrin məhsulu olan romantizm erkən modernizmin birhissəsini təşkil edir. O, qeyd edir ki, XX əsrin əvvəllərinə qədər sənətin dəyəri və keyfiyyəti mimesis anlayışı əsasında formalaşmışdır. Yunan mənşəli “mimesis” termini “fiziki jestlə effekt yaratmaq” mənasını ifadə edir. Əslində “imitatio” termini nitq zamanı yaradılan bədii əsərin, ədəbi məhsulun və ya ümumiyyətlə bir obyektin təqlidi ilə əlaqələndirilir. Dellaloğlunun fikrincə, *“Mimesis sadəcə ən sadə mənada köçürmə deyil, eyni zamanda təqlid etmək, təsəvvür etmək, ifadə etmək və hətta formalaşdırmaq mənalarını da ehtiva edir”.*[4, səh.80]Beləliklə, mimesis sadəcə bir obyektin sadə surətini çıxarmaq deyil, onun ideyasının təsəvvür edilməsi, bədii şəkildə ifadəsi və yeni bir forma qazandırılması prosesini də ehtiva edir. Başqa sözlə desək, mimesis yalnız mövcud olan bir şeyi olduğu kimi əks etdirmək deyil, həm də onun daha dərin, yaradıcı və şərh edilə bilən formalarını üzə çıxarmaqdır.

Sənət və həyat arasındakı əlaqəni şərh edərkən Dellaloğlu vurğulayır ki,*“İncəsənət həyatı əks etdirən bir güzgüdür. Sənət, həyatın bədii formada təkrarıdır. Ona görə də sənətkar əslində bir təqlidçidir. Hətta sənət əsərinin uğuru bu təqlidin uğurundan asılıdır”.*[4, səh.80]Lakin bu təqlid sadəcə real həyatı olduğu kimi təsvir etməkdən ibarət deyil; sənətkar reallığın müxtəlif aspektlərini bədii dillə ifadə edir, duyğular və mənalar əlavə etməklə onu daha kompleks və estetik dəyəri olan bir formaya salır. Dünya romantik ədəbiyyatının korifeyləri, eləcə də fransız ədəbi-mədəni mühitinin düşüncəsində özünü parlaq şəkildə göstərən romantik məfkurə çoxgedişli, çoxçalarlı yanaşmaları ilə ədəbi prosesə əlavə estetik zənginlik modellərinin gəlişi ilə spesifikləşir. Həyatda olduğundan gözəl düşçüncısi bir xətt olaraq müxtəlif formalarda özünü təzahür etdirir. Fransız ədəbiyyatının V.Hüqo, Q.Flober, A.Duma, E.Zolya, J.Vern, G.D.Mopasson, F.Stendal kimi böyük sənətkarlarının yaradıcılığı üzərində aparılan müşahidələr gedən prosesin

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 391-398*

dinamikasını, həyata baxışın spesifiklik mənzərəsini, polifonik yanaşmalarda həyat həqiqətinə yaradıcı baxışlarını aydınlaşdırmaq üçün müstəsna əhəmiyyət təşkil edir.

Məlum olduğu kimi, romantizm ənənəvi mimesis konsepsiyasına qarşı çıxan ilk ədəbi cərəyanlardan biridir. Mimesis qanunlarına görə, sənətkar reallığı əks etdirməyə borcludur. Bunun əksinə olaraq, romantik estetika real həyatda mövcud olmayan və ya reallıqda öz yerini tapmayan elementlərin ifadəsinə üstünlük verir. Beləliklə, romantizm bədii yaradıcılığın yalnız reallığı təkrarlamaq deyil, onu subyektiv duyğular və fərdi təsəvvürlər əsasında yenidən formalaşdırmaq funksiyasını vurğulayır. Yaradıcılıq konsepti olaraq yazıçı təxəyyülündə olanlara daha çox üstünlük vermə ilə müşahidə olunan bu baxış modeli həyatı olduğu kimi təqdimdən yox, onu təsəvvüründə olduğu kimi canlandırmağa önəm verir. Bu isə özlüyündə şərti işarələnmə müstəvisində fantastik elementlərin təzahürünə, rəmzləşmələrə meyillənmə ilə mahiyyəti ehtivaya yüklənir.

Romantik düşüncə orijinallığı və kortəbiiliyi ön plana çıxarır. Ümumiyyətlə, bədii düşüncə, yaradıcı məfkurəsinin spesifiklik layı bütün səviyyələrdə fərdiyyəti, özünəməxsusluğu nümayiş etdirmələrlə göz önünə gəlir. Müstəsna xarakter və süjetlərin ortaya çıxması ilə spesifikləşən bu hal bütün səviyyələrdə həm də yaradıcı üslubunu formalaşdırır. Subyektiv qiymətləndirmə üslubu, müstəsna xarakter və süjetlərin nümayişi və əsərin strukturunda sərbəst hərəkətlilik həyatda olduğundan fərqli bir formulanın biçimlənməsini özündə təzahür etdirir. Dellaloğlunun fikrincə, romantik sənətkar *"Həddindən artıq həssas xəyalpərəst olmaqdansa, dözülməz reallığa qəhrəmancasına üsyan edən bir insan"*dır.Onun fikrincə, *"romantizm dünyanı dəyişdirmək əvəzinə tamamilə yeni bir dünya qurmaq arzusundadır. Üstəlik, yeni yaranan dünyanın gerçək dünya ilə əlaqədə olması romantizm üçün zəruri deyil".* [4, səh.80] Bu baxımdan, romantik sənətkar reallığı həssaslıqla və xəyalpərəst bir yanaşma ilə qəbul etməkdən daha çox, onunla mübarizə aparmağa, onu dəyişdirməyə və ya ondan uzaqlaşmağa meyillidir. Bu isə romantizmin real həyatın çətinliklərinə və məhdudiyyətlərinə qarşı üsyan mahiyyəti daşıdığını göstərir. Romantik sənətkar mövcud dünyanı qəbul etmək əvəzinə, ona qarşı çıxmağa və daxili aləmində fərqli bir həqiqət yaratmağa üstünlük verir. Digər tərəfdən, romantizm mövcud dünyanı dəyişdirmək məqsədi güdməkdən daha çox, yeni və fərqli bir dünya qurmağa can atır. Bütün səviyyələrdə romantizm varlığı inikas və tipikləşdirmə üsuludur. V.Hüqonun "Düşüncələr", "Əsrlərin əfsanəsi", "Səfillər", "Paris – Notr-Dam", "Edam məhkəməsinin son günü" və s. əsərləri bütün mahiyyəti ilə yaşadığı dövrün ümumi ahəngi səviyyəsində yaradıcı münasibətlərinin təzahürü olaraq spesifikləşir. Onu da əlavə edək ki, bu təkcə V.Hüqo yaradıcılığında olanlarla mahiyyətini ortaya qoymur, P. Merimenin "Klora Qasulunteatrı", "İkiqat səhv", "Abbat Oben", "İlliyalı Venera", "Kolomba", "Karmen", J.Sandın "Roz və Blanj", "İndiana", "Cənab Antuanın günahı", "Qar adam", P.J.Beanjenin 2Markiz de Karaba", "Müqəddəs atalar", "İblisin ölümü", "Qoca səfil", "Səfehlər" və s. əsərlərdə

bir sistem olaraq özünü təzahür etdirir.Beləliklə, romantik sənətkar öz ideal dünyasını formalaşdırmağa çalışır ki, bu dünya real dünyadan tamamilə fərqli ola bilər. Romantizm üçün real dünya ilə əlaqə mütləq şərt hesab edilmir, çünki bu cərəyan daha çox daxili aləmi, idealları və xəyalları ön plana çıxarır.

Qərb dövlətlərində baş verən böhran və inqilablar eyni zamanda və eyni şəkildə meydana gəlməmişdir. Hər bir ölkə bu böhrana öz siyasi, sosial və tarixi şəraitinə, eləcə də öz maraqlarına uyğun müxtəlif reaksiyalar vermişdir. Fransada, almaniyada, ingiltərədə, Polşada, İspaniyada və s. ölkələr səviyyəsində ayaqlaşmalar və on səkkizinci yüzillikdən artan etiraz dalğaları on doqquzuncu yüzilliyə doğru yüksələn tempi ilə ədəbi prosesə, onun elmi-nəzəri fakturasına da əsaslı təsir mexanizmləri ilə özünü nümayiş etdirir. Ədəbi-mədəni düşüncə bunları təkcə təqdimlə məhdudlaşmır, yaradıcı düşüncəsində həm də həlli mexanizmlərini işləməklə spesifikləşir. Buna görə də, *"Romantizm Fransa inqilabı nəticəsində parçalanmış Almaniya və İngiltərədəki kimi müxtəlif ölkələrdə eyni əks-sədaya sahib ola bilməzdi"* [3, səh.13]

Romantizmin tarixi inkişafında başlanğıc və sonluq arasında müəyyən bir davamlılıq müşahidə edilmir. Bu cərəyanın çoxsaylı nümayəndələri mövcud olmuş və onların hər biri fərqli xüsusiyyətlərə malik olmuşdur. Bununla belə, romantikləri birləşdirən əsas ideologiya mövcud olana qarşı çıxmaq və onu dəyişdirməyə çalışmaq prinsipi olmuşdur. Ümumi kontekstdə aparıcı funksiya mövcud olana qarçı çıxma düşüncəsi bütün parametrlərdə birləşdirici olan kimi hər bir kəs tərəfindən qəbul olunan idi, onun digər tərəfi məsələnin həlli müstəvisində yanaşma və baxış fərqlilikləri idi. Romantik ədəbiyyatın, eləcə də romantizm cərəyanının bü baxımdan mahiyyətində olanların açımı müstəsna əhəmiyyət daşıyır. Bu kontekstdə *"Sosial və ya siyasi üsyandan əlavə, metafizikadan da danışıla bilər. Romantizmin inqilabla sıx bir əlaqəsi vardır"* [5, səh.18].

Romantizm 18-ci əsrin sonu və 19-cu əsrlərdə formalaşmış ədəbi-mədəni cərəyan olaraq təkcə siyasi və ictimai sahələrdə deyil, həmçinin insanın daxili aləmi, duyğuları və təbiətə münasibəti kontekstində də inqilabi dəyişikliklərə səbəb olmuşdur. Məsələyə bu kontekstdə baxanda mahiyyətin açılması üfiqi və şaquli müstəvidə müxtəlif yönlü yanaşmaları problem olaraq diqqət önünə gətirir. Siyasi aspektdə məsələnin tözahür forması, sosial səviyyədə olanların ümumi xarakteristikası, eləcə də insanların daxili aləmində olanların polifoniyası və s. paralel şəkildə mühit kontekstində təhlilləri zərurətə çevirir. Bu dövr sosial və siyasi dəyişikliklərlə səciyyələnmiş, cəmiyyətin ənənəvi strukturlarına qarşı üsyan motivlərini özündə ehtiva etmişdir. Romantiklər zaman-zaman bu inqilabi hərəkatlara dəstək vermiş, bəzən isə köhnə ictimai quruluşlara və onların prinsiplərinə qarşı çıxmışlar. Xalqın ictimai-siyasi proseslərə mövqe nümayiş etdirməsi, mövcud cəmiyyət strukturunda baş verən çatlar, əhalinin iqtisadi gərginliklər altında yaşadığı həyat tərzi eləcə də ədəbi-mədəni mühitin həmin mübarizənin avanqardı funksiyasında çıxış etməsi hərəkatın dönməzliyini və ona

yanaşmanın rəngarənglik modellərini ortaya qoyur. F.Stendalın, A.Dumanın, J.Sandın, E.Zolyanın, G.D.Mopassonun, O.Balzakın, J.Vernin və başqalarının yaradıcılığı bütün məzmunu və ehtiva etdiyi təsəvvürlə cəmiyyəti ifadəyə köklənir.

Romantizmin digər mühüm xüsusiyyətlərindən biri insanın metafizik və mənəvi dünyasına yönələn dərin düşüncələrdir. Romantik düşüncə yalnız insanın fiziki və ictimai mövcudluğu ilə məhdudlaşmır, eyni zamanda onun mənəvi və ruhani dünyası ilə əlaqəsini də ön plana çıxarır. Onu da əlavə edək ki, bu hal təkcə Avropa ədəbiyyatı və ya Fransa ədəbi-mədəni mühitində olanlarla məhdudlaşmır, öz tipologiyası etibarilə dünya ədəbiyyatını əhatələmək gücü və simpatiyası ilə spesifikləşri. Şərq ədəbiyyatın romantik canlandırma mexanizmləri ədəbiyyatın şifahi və yazılı qolunu bu və ya digər şəkildə əhatələmək gücü ilə ayrıca bir axarı faktlaşdırır. İngilis ədəbiyyatında V.Skot, C.Q.Bayron, Ç.Dikkens, Şelli, alman ədəbiyyatında İ.V.Göte, H.Heyne və s. kimi onlarla sənətkarın yaradıcılığı tipoloji yanaşmalarda əsaslı bir təsəvvürlə diqqət önünə gəlir. Onu da deyək ki, romantizm təkcə cəmiyyətdə deyil, fərdin daxili dünyasında da inqilabi dəyişiklikləri təşviq etmiş, mənəviyyat və təbiətə münasibətdə yeni yanaşma formalaşdırmışdır.

Bu cərəyan öz mahiyyətində inqilabi ruh daşıyır. Romantik hərəkat həm siyasi, həm də fərdi hisslər və düşüncələr baxımından ənənəvi sərhədləri aşmağa yönəlmişdir. Romantiklər fərdi azadlıq, yaradıcılıq və intuisiyaya xüsusi əhəmiyyət verərək mövcud sosial və mədəni qaydalara qarşı çıxmış, eyni zamanda təbiətə, gizli və mənəvi qüvvələrə dərin maraq göstərmişlər. V.Hüqonun, E.Zolyanın, Mopassanın, V.skotun, C.Q.Bayronun, Balzakın zəngin yaradıcılığı bütün stixial xarakteri ilə bunları nümayiş etdirir. Beləliklə, romantizm yalnız sənət və ədəbiyyatda deyil, ümumi düşüncə tərzində də inqilabi yanaşma yaratmışdır.

Fransa inqilabı və sənaye çevrilişi, əvvəlki dövrlərə nisbətən unikal hadisələrə çevrildi. Hakimiyyətə və ənənəyə qarşı azadlıq və fərdiyyətçilik kimi anlayışlar ön plana çıxdı. *"Azadlıq anlayışı 1848-ci ilə qədər şiddətli müzakirələrə səbəb olsa da, Fransanı özlərinə örnək götürərək az-çox hər yerdə köləlik ləğv olundu.Ölkələrin idarə olunma tərzi dəyişdi və bir çox xalqlar öz növbəsində öz qanunlarını müəyyənləşdirdi, müstəqilliklərini əldə etməsələr də milliyyətlərinin tanınması hüququnu qazandılar. Millət anlayışı romantik və inqilabi bir məsələ kimi müzakirələrin mərkəzinə gəldi"* [3, səh.13]. V.Hüqonun təsəvvüründə normativləşmiş əxlaq və davranış modelləri, yaşam tərzi və düşüncəsində olanlarla cəmiyyətdə baş verənlərin, gördüklərinin fərqli tipi bütün mahiyyəti ilə onu, eləcə də digər romantik həmkarlarını axtarışa, cəmiyyət səviyyəsində gedən proseslərə kökləyir. Bütün ayaqlaşmalar isə yeni düşüncə və yaşam nizamının ortaya çıxmasını müstəsna mövqeyə daşıyırdı. Bütünlükdə bunlar özlüyündə geniş aspektdə millətçilik məfkurəsinin formalaşmasını müstəsna səviyyəyə qaldırırdı. Fərdiləşmədən ümumiləşmə timsalında olanlara yüksəliş məhz hərəkatın diaxroniyasını, fəlsəfi mahiyyətini, ideoloji, həm də siyasi axarını bir vacib olan kimi şərtləndirirdi. Burada

"millət" anlayışının romantik və inqilabi bir məsələ kimi müzakirə edilməsi, millətçi hərəkatların yüksəlişini və bu hərəkatların 19-cu əsrin inqilabi cərəyanları ilə əlaqəsini göstərir. Romantik dövrdə millətçilik həm mədəni, həm də siyasi bir problem olaraq meydana çıxdı. İnsanlar öz millətlərinin azadlığı və tanınması uğrunda mübarizəyə başladılar. Bu dövrdə, bir çox xalqlar bəzən müstəqilliyə nail olmasalar da, ən azından öz milli kimliklərini təbliğ etmək və qorumaq hüququ əldə etdilər. Bu, millətçilik anlayışının yayılmasına və "millət-dövlət" ideyasının formalaşmasına səbəb oldu. Bu səbəbdən milli romantizmin doğulması Fransada baş verdi. Sonrakı mərhələlərdə, daha doğrusu, onilliklərdə baş verən hadisələr bir örnək olaraq fərqi, həm də yaxın olan tərzdə digər ölkələrdə də təkrarlanmalarla konsepsiyalaşdı. Bütün bunlar ədəbiyyat müstəvisində romantizmin ədəbi cərayan kimi meydana gəlmə və formalaşma tipologiyasını ortaya qoymaqla şərtlənir.

Fransa burjua inqilabı və Napoleonun 1815-ci ildəki Vaterlo döyüşündəki məğlubiyyəti, romantizmin meydana gəlməsinə xüsusi təkan vermişdir. Ümumiyyətlə, bütün mərhələlərdə ictimai-siyasi gərginliklər, cəmiyyətin sosial vəziyyətinin cansıxıcı problemləri, iqtisadi çətinliklər və baş verən hərc-mərcliklər cəmiyyətsəviyyəsində narazılıqlardan ayaqlaşmalara üsyanlara qədər qalxan tempi qaçılmaz edirdi. Ədəbi-mədəni mühit bu prosesdə öz yanaşmaları, problemin çözümü müstəvisində müxtəlif axtarışlara köklənirdi. Fransız ədəbi-mədəni mühiti bunun tipik örnəyi olaraq bir istiqamətdə romantik yanaşmaların çeşidliliyi ilə öz mövqeyini nümayiş etdirirdi. Əslində, romantizm bütün müasir sənət cərəyanları ilə birgə burjuanın yaşam tərzinə, fəlsəfəsinə və iqtisadi anlayışına qarşı çıxan üsyankar bir hərəkat idi. Bu, sənətdə ilk qırılma nöqtəsini təşkil edirdi. Məsələyə Azərbaycan ədəbiyyatının on doqquzuncu əsrin sonu və iyirminci əsrin əvvəlləri Azərbaycan ədəbiyyatı müstəvisində yanaşdıqda daha təfərrüatlı, həm də tipoloji baxımdan diqqəti cəlb edən maraqlı məqamlar ortaya çıxır. Beləliklə,*“Romantiklər burjualığı hər vəchlə tənqid edir və onun,hər şeydən öncə, ictimai-mənəvi aspektdə təhlilini verməyə can atırdılar.Bu, maddi marağın hərtərəfli dəstəklənməsi idi”*[1, səh.145]. Sərt həyat həqiqəti və onun mürəkkəb tendensiyaları, özüylə birgə formalaşdırdığı təsəvvür modelləri tədrici axarda romantizmi bir zərurət olaraq təşəklü mexanizmini formalaşdırmaq üçün əsasa çevrildi. Tədqiqatçının bu fikirləri, romantizm ədəbi cərəyanının nümayəndələrinin bir növ burjuaya qarşı çıxdığını göstərir.

Fransız romantizmi, Fransada baş vermiş sosial, siyasi və mədəni dəyişikliklərlə bağlı bir ədəbiyyat, incəsənət və daha geniş mənada mədəniyyət hərəkatıdır. İngilis, alman, ispan, polyak, özbək, qırğız, türkman, Azərbaycan ədəbiyyatında da bu təsəvvür eyni təzahür tipi ilə özünü nümayiş etdirir. İctimai-siyasi, ədəbi-mədəni, dini-ideoloji axarı əhatələməklə həm də özünün modelni bir proses olaraq içində hazırlayır. Bu hərəkat, əvvəlki dövrlərin tələblərinə qarşı çıxaraq, yeni bir ifadə forması və sənət anlayışı yaratmağa çalışmışdır. Romantizm cərəyanının əsas xüsusiyyətlərindən biri gözəllik, estetik hisslər və insani duyğulara yüksək dəyər

verməkdir. Fransız romantizmi isə gözəlliyi yalnız xarici görünüşdə deyil, daxili və emosional qatlarda axtarır və təbiətin, insanın daxili aləminin gözəlliyini, ziddiyyətlərini və dərinliyini vurğulamaq üçün estetik prinsiplərə əsaslanır. Həm estetika, həm də romantizmdə emosiyalara xüsusi yer verilir və Fransız romantikləri bu duyğuları estetik vasitələrlə ifadə edirdilər. Beləliklə, hər bir əsər həm duyğusal, həm də estetik dəyərə sahib olurdu.

Romantik dövrün sənətkarı özünü keçmişin varisi kimi görməmiş və bu xüsusiyyətinə görə əvvəlki dövr sənətkarlarından fərqlənmişdir. Romantizm ədəbi cərəyanının nümayəndələrində məhəbbət, təbiət və dini duyğulardan daha dərin daxili romantizm elementi mövcud idi.

## İstifadə edilmiş ədəbiyyat

1. Abduləzizova, S. Fransız romantizmi və onun nəzəri prinsipləri. // Dil və ədəbiyyat: Beynəlxalq elmi nəzəri jurnal. №1(85). – 2013. – s.145-147. S145
2. Hüqo, V. Paris Notr-Dam kilsəsi. / Tərcüməçi Mikayıl Rəfili. – Bakı: Qanun nəşriyyatı. – 2022. – 512 s.
3. Claudon, F. Romantizm Sanat Ansiklopedisi. / Çev. Ö.İnce, İ.Usmanbaşı. – İstanbul: Remzi Kitabevi. – 2006. – 308 s.
4. Dellaloğlu, B.F. Romantik muamma. – İstanbul: Ayrıntı Yayınları. – 2010. – 147 s.
5. Işıksal, A. Romantizm türleri və ölkələrə görə ayrımı. // Akademik sanat tasarım ve bilim dergisi. № 13. – 2021. – s. 14-23.

**Rəyçi : fil.e.d.prof. Mahmud Allahmanov Qara**